Milli Kültür Araştırmaları Dergisi (MİKAD) / Cilt 9 - Sayı 1

**Sorumlu Yazar:** Doç. Dr. İlhama AĞAZADE, Azerbaycan Milli Bilimler Akademisi Nizami Gencevi Adına Edebiyat Enstitüsü, iahmadova@inbox.ru

**ORCID ID:** 0000-0002-2452-2060

**Atıf:** Ağazade, İ. (2025). Zahid Khalil'in Çocuk Şiirleri, Milli Kültür Araştırmaları Dergisi, 9 (1), s. 69-78.

**Gönderim ve Kabul Tarihi:** 10 Şubat 2025 / 16 Mayıs 2025

Araştırma Makalesi

ISSN: 2587-1331

DOI: 10.55774/mikad.1637246

https://dergipark.org.tr/tr/pub/mikad

# ZAHİD KHALİL'İN ÇOCUK ŞİİRLERİ

**Öz**

Azerbaycan çocuk edebiyatının önemli isimlerinden biri olan Zahid Halil, eserlerinde çocukların dünyaya bakış açısını şekillendirmeye ve estetik duyarlılıklarını geliştirmeye büyük önem verir. Şiirlerinde millî değerler, vatan sevgisi, doğaya bağlılık ve ahlaki terbiye gibi konular ön plandadır. Canlı ve imgelerle zenginleştirilmiş dili, yalın ve ahenkli yapısıyla dikkat çeker.

Şairin şiirlerinde çocukların hayal gücünü besleyen metaforlar, benzetmeler ve tekrarlar önemli bir yer tutar. Onun üslubu, çocukların dünyasını anlamayı kolaylaştırırken, onlarla güçlü bir bağ kurmayı da sağlar. **“Denize akşam düşer”, “Torağaylar öter”, “Damcılar”, “Kür Nehri”, “Çınar”, “Çimen”, “Keklik”** gibi şiirlerinde çocuk duyarlılığı ön planda tutulmuş, eğlenceli anlatımıyla küçük okurların ilgisini çekmiştir.

Zahid Halil, Azerbaycan kültürü, tarihi ve doğasına olan sevgisini eserlerine yansıtarak çocuk edebiyatını zenginleştirmiş ve yeni bir aşamaya taşımıştır. Bu makalede, onun çocuk şiirlerindeki temel temalar ve sanatsal ifade biçimleri incelenerek, edebiyattaki yeri ve önemi ele alınmaktadır.

**Anahtar kelimeler:** Çocuk şiiri, doğa, vatan, güzellik.

## ZAHID KHALIL'S CHILDREN'S POETRY

**Abstract**

Zahid Khalil, as one of the prominent figures in Azerbaijani children's literature, places great emphasis on shaping children's worldview and developing their aesthetic sense through his works. His poetry covers themes such as national values, patriotism, love for nature, and moral upbringing. His poems are distinguished by vivid and imaginative language, easily comprehensible poetic structures, and musicality.

Zahid Khalil’s works widely incorporate metaphors, similes, and repetitions that enhance children's imagination. His poetic style enables a deeper understanding of the children's world and fosters closer communication with them. In poems such as “Evening Falls to the Sea”, “The Toragays Are Singing”,

"Raindrops", "The Kura River", "The Plane Tree", "The Meadow", "The Partridge", the poet successfully captures children's sensitivity, combining an engaging narrative with elements of playfulness. While rooted in the rich traditions of Azerbaijani children's poetry, his works also align with the demands of the modern era.

This article provides a detailed analysis of the themes and artistic expression techniques in Zahid Khalil's children's poetry, highlighting his significance in Azerbaijani literature.

**Keywords:** Children's poetry, nature, homeland, beauty

## GİRİŞ

Poeziya uşaqların ruhsal və intellektual inkişafına əhəmiyyətli təsir göstərir, onlara mədəni-əxlaqi dəyərlər aşılayır, maraqlarını cəlb edir və əyləncəli bir şəkildə öyrənməyə kömək edir. Bu səbəbdən, poeziya uşaqla ünsiyyətin və təlim-tərbiyənin mühüm vasitələrindən biri kimi qəbul edilir. Azərbaycan uşaq poeziyası zəngin və çoxşaxəli bir inkişaf yolu keçmişdir. Tarixən şifahi xalq ədəbiyyatının bir hissəsi kimi formalaşan uşaq ədəbiyyatı XIX əsrdə yazılı poeziyada özünəməxsus yer tutmağa başlamışdır. XX əsrin əvvəllərindən etibarən Rəşid bəy Əfəndiyev (1863-1942), Seyid Əzim Şirvani (1835-1888), Abdulla Şaiq (1881-1959), Abbas Səhhət (1874-1918), Mirzə Ələkbər Sabir (1862-1911) kimi şairlər uşaqlar üçün bədii nümunələr yaratmış, bu sahənin əsasını qoymuşlar. Füzuli Əsgərli yazırdı: "XIX əsrin sonu və XX əsrin ilk onilliyində ümumi milli ədəbiyyatda, o cümlədən, uşaq ədəbiyyatında gedən mütərəqqi proseslər yeni bir inkişaf mərhələsinin başlanğıcı oldu. Bunun bir sıra köklü səbəbləri vardı: milli maarifçilik ideyalarının geniş yayılması, mütərəqqi məktəblərin kəmiyyət baxımından artması, milli dərsliklərin yaranması" (Əsgərli, 2009: 48). Sovet dövründə uşaq poeziyası geniş yayılaraq yeni mərhələdə inkişafını davam etdirmişdir. Səməd Vurğun (1906-1956), Rəsul Rza (1910-1981), Mikayıl Müşfiq (1908-1938), Mirvarid Dilbazi (1912-2001), Əhməd Cəmil (1913-1977), Mikayıl Rzaquluzadə (1905-1984), Mədinə Gülgün (1926-1991), Hüseyn Arif (1924-1992) kimi şairlər uşaq poeziyasının inkişafında mühüm rol oynamışdır. Onların yaradıcılığında vətənpərvərlik, əxlaqi dəyərlər, təbiət sevgisi və sosial mövzular ön plana çıxmışdır. Bədirxan Əhmədli yazır: "Azərbaycan poeziyası özünün minillik inkişaf yolunda daim dəyişmiş, yeniləşmişdir; bu yeniləşməni zaman-zaman sənətə gələn yeni düşüncə tərzi və yenilikçi qüvvələr təmin edib" (Əhmədli, 2015: 28). Bu baxımdan demək olar ki, müstəqillik dövründə yaranmış Azərbaycan uşaq poeziyası ənənəvi mövzularla yanaşı, azadlıq, milli hiss, vətənpərvərlik, 20 Yanvar faciəsi, şəhidlik, müharibə və s. kimi yeni istiqamətlər də qazanmışdır. İlyas Tapdıq, Teymur Elçin, Tofiq Mahmud, Xanımana Əlibəyli, Hikmət Ziya, Fikrət Sadıq, Məstan Günər, Zahid Xəlil, Qəşəm İsabəyli, Ələmdar Quluzadə, Rafiq Yusifoğlu, Sevinc Nuruqızı kimi müasir dövrün şairləri uşaqların maraqlarına, düşüncə tərzinə uyğun əsərlər yazmağa başlamışlar. Zahid Xəlil Azərbaycan uşaq poeziyasında mühüm yer tutan, klassik ənənələri qoruyaraq onu yeni üslubla inkişaf etdirən şairlərdən biridir. Əsərləri mövzu baxımından rəngarəng, üslub baxımından isə orijinal və təsirlidir. Onun yaradıcılığı müasir uşaqların maraq və ehtiyaclarını nəzərə alaraq formalaşmış, həm əyləndirici, həm də tərbiyəvi xarakter daşımışdır. Bu baxımdan, Zahid Xəlil Azərbaycan uşaq poeziyasının inkişafında fərqli üslubu və təsirli bədii dili ilə xüsusi mövqeyə malikdir.

Uşaq poeziyasında təbiət mövzusu çox önəmlidir, eyni zamanda vətənpərvərliklə sıx əlaqəlidir. Bu mövzunu araşdırmaq üçün Zahid Xəlilin uşaq dünyasını anlamağa və ifadə etməyə kömək edən keyfiyyətlərlə cilalanmış poeziyası geniş material verir. Ana yurdun tarixi və mədəni dəyərlərini poetik dilə çevirən şair vətəni insanın ruhunun bir parçası kimi görür və vətənə olan sevginin əvəzsiz olduğunu vurğulayır. Onun şeirlərində Vətən yalnız coğrafi bir məkan deyil, həm də milli kimliyin, tarixin və mədəniyyətin simvoludur. "Dənizə axşam düşür", "Torağaylar oxuyur", "Damcılar", "Kür çayı", "Çinar", "Çəmən", "Kəklik" kimi şeirlər uşaqlarda yurdun gözəlliklərinin tanıdılmasına, mövsümi dəyişikliklər, ətraf aləm haqqında bilgilərin əlvan düşüncə və emosiyalarla təqdiminə imkan yaradır, vətənin təbii

sərvətlərinə, milli simvollarına, tarixi zənginliyinə hörmət formalaşdırır, kiçik oxucu və ya dinləyicini ölkənin gələcəyinə faydalı vətəndaş kimi yetişdirir.

## 1. Zahid Xəlilin ilk şeirləri

Zahid Xəlilin çap olunmuş ilk kitabı olan "Uçan çıraqlar"da yer alan süjetli şeirlər uşaqların xəyal və fantaziya ilə zəngin duyğu dünyasına yeni çalarlar gətirir. "Yalançı İmran", "Dələ", "Ay dənizə düşmüşdür", "Qırxbuğum", "Qarışqalar", "Göbələk", "Gicitikan", "Çobanyastığı", "Çəmən" və s. şeirlərdə həyatın müxtəlif aspektləri və canlıların əhəmiyyəti barədə bilgilər verilir; bu şeirlər vasitəsilə uşaq üçün yeni bir dünyaya qapı açılır. Məsələn, müəllifin "Gicitikan" adlı şeirində bitkilər dünyasının xüsusiyyətləri poetik təsvirlərlə təqdim olunur:

Hasarların dibində
Gördüm tala-taladı.
İstədim yığım onu,
Əllərimi daladı.
Uşaqları incitmə
Ay davakar, gicitkan,
Tikanların var deyə
Niyə lovğalanırsan? (Xəlil, 2008a: 87)

Bu misralarda şair gicitikanı **uşaq dili ilə, bədii və oyunsal üslubda** təqdim edərək həm təbiət müşahidəsini, həm də **əxlaqi bir mesajı** — ehtiyatlı olmaq, zahiri gözəlliyə aldanmamaq, başqasını incitməmək fikrini uşaq şeiri çərçivəsində ifadə edir. Tədqiqatçı Aydın Hacıyev "Uçan çıraqlar" kitabını belə qiymətləndirir: "1960-cı illərin sonlarından etibarən müntəzəm dərc olunan Zahid Xəlil, ilk qələm təcrübələri ilə seçilməyi bacardı. Hər dəfə şair didaktizmdən uzaq duraraq, maraqlı və rəngarəng mövzularda yazaraq kiçik oxucularını sevindirirdi. Bitki, kol və heyvanların xüsusiyyətlərini qabardan bu şeirlər əsasən 7, bəzən isə 3, 4, 5 və ya 6 hecadan ibarət olduğu üçün yadda saxlanması asan idi" (Hacıyev, 1970: 6).

Başqa bir tədqiqatçı - Dursun Məmmədov isə "Uçan çıraqlar" kitabında yer alan **"**Tez gəl buzov", "Bulaqlar donmur", "Telefon", "Sevinc və İlqar" kimi şeirləri nəzərdə tutaraq yazırdı: "Qeyd etmək lazımdır ki, kitabdakı bəzi şeirlər müasir uşaq poeziyasının və müəllifin öz səviyyəsindən aşağıdır. Bu şeirlərdə müəllif sözçülüyə qaçmış, necə deyərlər, "dərs deməyə" çalışmışdır" (Məmmədov, 1969: 5).

Yaradıcılığını yaxından izlədikdə aydın olur ki, sonrakı illərdə Zahid Xəlil təkcə uşaq şeiri yazmaqla kifayətlənmir, həm də uşaq ədəbiyyatını dərindən tədqiq obyektinə çevirir, araşdırır, öyrənir, yeniliklərdən bəhrələnir. Bunu nəzərdə tutan Teyyub Mənsimoğlu yazır: "Zahid Xəlilin şeirlərindəki poetik fikir tutumu bədii vasitələrlə daim cilalanır, zənginləşir, balaca oxucuları ilə ara məsafəsini daha da yaxınlaşdırır. Bu yadda qalan cəhət şairin iriili-xırdalı şeirlərinin başlıca qayəsini təşkil edir" (Mənsimoğlu, 2000: 341).

## 2. Təbiətə dair düşüncələr

Təbiət poeziyanın ilham qaynağı və dərin mənaların ifadə olunduğu bir yer kimi bütün dövrlərin şairlərinin əsərlərində əksini tapır. Ümumilikdə, poeziyada bu mövzu həm estetik, həm də fəlsəfi bir zənginlik təqdim edir və sənətkarlar bu zənginliyi fərqli cəhətlərdən ifadə edərək oxucuya müxtəlif təcrübələr və düşüncələr bəxş edirlər. Tədqiqatçılar ədəbiyyatımızda təbiət mövzusunun belə geniş yayılmasını bir az da gözəl vətənimizin rəngarəng relyefi ilə əlaqələndirirlər. Zahid Xəlil ətraf aləmin estetik dəyərini və onun təkrarsız gözəlliklərini tərənnüm edə bilir. Onun şeirlərində çiçəklər, ağaclar, çaylar, dağlar və s. poetik bir dil ilə

canlı və möcüzəvi şəkildə təsvir olunur. “Kür çayı”, “Ləpələr”, “Külək və mələk”, “Günəş və nar”, “May”, “Nərə çəkdi dalğalar”, “Yay”, “Dənizə axşam düşür”, “Uşaqların səhvi”, “Qar”, “Günəş”, “Gecə”, “Göy qurşağı”, “Ulduz”, “Cığır”, “Payız”, “Payızın payı”, “İydə”, “Qazayağı”, “Gilas”, “Gicitikan”, “Qanqal”, “Baldırğan”, “Çaşır”, “Quşəppəyi”, “Çinar”, “Çəmən”, “Zoğal”, “Qora”, “Çobanyastığı”, “Sörğaçiçəyi”, “İnciçiçəyi”, “Qaymaqçiçəyi”, “Qantəpər”, “Lalə”, “Keçisaqqalı”, “Cincilim”, “Boranı” və s. nümunələrdə həyatın müxtəlif məqamları, fəsillərin özünəməxsusluğu, təbiətə dair duyğuların incə və dərin təsvirlərlə əksi sərgilənir. Hər bir şeir oxucunu bu gözəllikləri hiss etməyə və qiymətləndirməyə dəvət edir. Maraqlı və təsirli bənzətmələr əsasında qələmə alınmış “Çinar” şeirində olduğu kimi. Şeirdə çinar ağacının əzəməti və insanlarla olan mənəvi əlaqəsi gözəl bir şəkildə tərənnüm edilir. Belə ki, şair çinarı bir çox fərqli məziyyətləri ilə insanlara bənzədir, onun həm güclü, həm də qoruyucu olduğunu vurğulayır. Çinar millət sevgisinin və milli qürurun ifadəsi kimi təqdim olunur:

Çinar insan kimidi,
Beş barmaqlı yarpağı
Kökü dərinə gedir
Möhkəm tutur torpağı.
Min ildən çox yaşayır.
Deyirlər bu çinarlar.
Onların sinəsində
Əsrlərin sirri var.
Analar oğullara
Çinar boylum deyirlər.
Çinarla fərəhlənib
Oğula öyünürlər.
Mənim yurdumdan başqa
Söylə görüm harda var?
Çinar kimi oğullar,
Oğul kimi çinarlar (Xəlil, 2008 b: 180).

Zahid Xəlil təbiət mövzusunda əxlaqi tərbiyə, saf hisslər, əməli fəaliyyət üçün geniş imkanlar görür. Odur ki, yazır: “Təbiətin dili var / Düşündürür hər kəsi” (Xəlil, 2008 a: 205).

### 3. Zahid Xəlil yaradıcılığında quşlar

Uşaqlara yönəlik müasir poeziyada quşlar təbiətin gözəlliyini və möcüzələrini göstərmək üçün tez-tez istifadə olunan obrazlar sırasındadır. Quşlar çox vaxt azadlıq və ümidi simvolizə edir, "yüksəlmək" arzusu aşılayır, bu da uşaqların inkişafı üçün mühüm bir motivasiya ola bilər. Kiçik canlıların metaforik təqdimi Zahid Xəlilin "Torağaylar oxuyur" kitabında da görsənir. Şair quşların müxtəlif yönlərini sadə bir tərzdə, eyni zamanda böyük sövqlə bədiiləşdirir. “Arı və kəpənək”, “Bildirçin”, “Qırqovul”, “Hacıleylək”, “Bülbül”, “Kəklik”, “Cüllüt”, “Kəpənəklər”, “Qaranquş”, “Qartal”, “Şanapipik”, “Torağaylar oxuyur”, “Ağacdələn”, “Hörümçək və mozalan”, “Sərçələrin nəğməsi", “Tut-bit”, “Durnalar”, “Uçağan böcək”, “Qızıl qaz”, “Tovuz quşu”, “Qırğılar”, “Qağayılar”, “Sona”, “Qutan”, “Sərçə və şar” və s. şeirlərdə “quşların həyat tərzi, onların yaşama xüsusiyyətləri ayrı-ayrılıqda izah edilir. Bu, oxucuda quşların müqayisəsi üçün geniş imkan yaradır” (Rəsulzadə, 1977: 7).

“Kəklik” şeirində olduğu kimi:

Qovduq
Yorduq
Kəkliyi.
Quyruğu

Yoluq
Kəkliyi.
Üstünün
Naxışları
Çaylağın daşı kimi
İçməyə
Su axtarır
Duru göz yaşı kimi (Xəlil, 2008 a: 49).

Kitaba "Torağaylar oxuyur" adının verilməsi də təsadüfü başlıq hesab edilməməlidir, torağaylar ətraf aləmin səsli və ritmik varlıqlarıdır, bu da kitabın ümumi qayəsini və şairin münasibətini əks etdirir:

Bahar gəldi, bahar gəldi,
Şəlalələr çəkdi haray.
Quşlar uçdu dəstə - dəstə,
Quşlar uçdu alay - alay.
Çöllər bahar həvəsiylə
Həzin - həzin səslənəndə,
Bir quş verdi torpağa hay.
Bunu görən başqa quşlar
Ona ad qoydu: "Torağay"!
İlk baharın gəlişinə
Torağaylar nəğmə dedi.
Torağaylar bu torpağın
Quşa dönmüş nəğməsidi... (Xəlil, 2008 a: 41).

Kitabın adını daşıyan bu şeir ("Torağaylar oxuyur") onun əsas ideya-estetik istiqamətini özündə cəmləşdirir. "Torağaylar oxuyur" kitabına daxil edilən bədii parçalardan da göründüyü kimi, Zahid Xəlil təbiətdəki hər kiçik canlıya böyük maraq və diqqət göstərən bir şairdir. Bütün bunlar onun həyatın müəyyən mənalarını açmaq, təbiətin harmoniya və gözəlliyini, həmçinin insanın təbiət və cəmiyyətlə uyğunluğunu izah etmək üçün seçdiyi simvollardır. Təbiət şairin düşündürmə vasitəsi kimi istifadə olunur. Bu cür nümunələr əsasında uşaqlar həyatın müxtəliflikləri ilə tanış olmaqla yanaşı, yeni məlumatlar alır, həm də müəyyən mənada ətraf aləmi dərk etməyə başlayır və daha böyük dünyagörüşü qazanırlar. Şeirləri oxuyan hər bir uşaq şairin verdiyi mesajları rahatlıqla anlaya bilər. "Torağaylar oxuyur" kitabı çapdan çıxan dövrdə onun haqqında müsbət ədəbi rəy formalaşmışdı. Hələ o zaman uşaq ədəbiyyatının tanınmış araşdırıcısı Qara Namazov yazırdı: "Burada ("Torağaylar oxuyur" kitabı nəzərdə tutulurdu) həm xalq ədəbiyyatının ənənələrinə, həm də klassik şairlərimizin şeir yolunun davamına, həm də müasir rus və Avropa ədəbi ənənələrinə rast gəlirik" (Namazov, 2007: 360). Zahid Xəlil yaradıcılığında yeni bir mərhələnin başlanğıcı hesab olunan "Torağaylar oxuyur" kitabı bu gün də uşaq poeziyasının seçilən nümunələrindəndir.

## 4. Zahid Xəlil yaradıcılığında rənglər silsiləsi

Zahid Xəlilin "Ağ", "Mavi", "Qırmızı", "Narıncı", "Yaşıl" şeirləri rənglərin insan həyatındakı və təbiətdəki rolunu poetik bir dillə təsvir edən əsərlərdir. Bu şeirlər vasitəsilə şair rənglərin müxtəlif mənalarını ön plana çıxarır. Adlarından da bəlli olduğu kimi, hər bir şeir fərqli rəngin yaratdığı hissləri, xatirələri və təəssüratları təsvir edir. "Yaşıl" şeirində olduğu kimi:

Türkün ana dilində
Yaşıl – cavan deməkdir.
Yaşıl – meşə, yaşıl - çöl,

Yaşıl – orman deməkdir.
Hər il bahar gələndə
Yaşıllaşır təpələr.
Elə bil ki, günəş də
Yerə yaşıl səpələr.
Ətrafına yaxşı bax,
Seyr elə yaşıl bağı (Xəlil, 1972: 7).

Yazıçı Allahverdi Eminov "Rənglərin dünyası"nı belə xarakterizə edir: "Mən rəngləri tanıyıram" (1972) kitabı "Rənglər, çiçəklər və böcəklər" silsilə şeirləri ilə açılır. Şair oxucusunu düşündürməyə səy edib. "Çəmənin xalı", "Uçağan böcək", "Gecə", "Göy qurşağı" kimi şeirlərdə mühakimə yürüdən, müqayisə edən uşaqlardır. "Meşədəki teleqramlar" silsiləsində heyvanların simasında uşaqlar tərbiyəvi fikirlərlə üzləşirlər. Alleqorik səciyyəli bu şeirlərdə qüvvətli və zəif heyvanlar danışırlar. "Ayının teleqramı"nda, "Canavarın teleqramı"nda vəhşilik, zorakılıq üstündür. "Dovşanın teleqramı"nda, "Atəşböcəyinin teleqramı"nda zəiflik, kimsəsizlik duyulur, psixoloji vəziyyət oxucunu həyatın ondan uzaq cəhətlərini xatırladır. "Dəcəllər" silsiləsində heyvanların danışığından lovğalıq, təkəbbürlük, başqalarına etinasızlığın pis keyfiyyət olduğu görünür. Kitabda müəllifin müxtəlif mənzum nağıları da toplanıb: "Qara qulaq, ağ küçük", "Çütcü və pələng", "Sıfırın nağılı", "Mən tülküyəm". "Mən rəngləri tanıyıram" kitabında aşağı səviyyəli əsərlər də yox deyildir: "Ay Vüqar", "Afatın kuklası", "Qatar" və s. "Arılar", "Cincilim", "Palma", "Yuvalar", "Qırğılar", "Çəpiş", "Balıq və qarmaq" şeirlərində, "Sıfırın nağılı" və "Mən tülküyəm" nağıllarında maraqlı, yaddaqalan hadisələrdən danışılır" (Eminov, 1972: 5).

## 5. Uşaq poeziyasında ritm

Uşaq poeziyasının ən əsas xüsusiyyətlərindən biri onun ritmik quruluşudur. Ritm və qafiyələr uşaqların diqqətini cəlb edir və şeirə axıcılıq verir, daha cazibədar və yadda qalıcı edir. Bu xüsusiyyət Zahid Xəlilin uşaq şeirləri üçün xarakterikdir. Yaz mövsümünün gətirdiyi canlılığı tərənnüm edən "Çəmən" şeirinə diqqət edək:

Bizim bağçamıza
Bir çəmən düşüb.
Sürüşüb baharın
Çiynindən düşüb.
Düzü başdan - başa
Tərifdir çəmən,
Quzu tükü kimi
Zərifdir çəmən (Xəlil, 2008 a: 100).

Şair təbiətə bir sənət əsəri kimi yanaşır və bu gözəllikdən ruhsal bir təcrübə çıxarır, uşağın düşüncələrini, emosiyalarını və həyatın mənasını ifadə edir. Bahar yenilik, yaşam və təravət simvoludur. Baharın gəlişi ilə təbiət canlanır və hər yer yaşıllaşır. Çəmən təbiətdə sakitlik və gözəlliklə əlaqəli verilir. Uşaqlara təbiətə və canlılara qarşı diqqətli olmağın vacibliyi aşılanır. Balacalar üçün uyğun ritm və qafiyə, misralar arasındakı ahəngdarlıq şeirin melodikliyini artırır.

"Damcılar" təbiət hadisələrini insan hissləri və duyğularıyla birləşdirən bədii parçadır. Şeir uşaqların dünyabaxışını dəyişmək, onlara həyat haqqında tövsiyələr vermək, eyni zamanda təbiəti və cəmiyyəti özünəməxsus şəkildə təqdim etməyə hədəflənib:

Bir - birindən yapışan
Damcıya bax, damcıya
Bir - birindən tutanda
Oxşayırlar qamçıya.

Damcılar gör nə çoxdu,
Beşdi, ondu, yüz idi...
Damcılar mirvaridi,
- Damcılar quş gözüdü.
Bircə - bircə düşürdü,
Damcılar yavaş - yavaş (Xəlil, 2008 a: 59).

Burada "damcılar" sadəcə su deyil, həm də həyatda olan kiçik anlar, düşüncələr və təkrarlanan hərəkətlər kimi qəbul edilə bilər. Hər bir damcı kiçik və sadə bir varlıq olaraq, bütöv bir sistemi, insanların və təbiətin bir-biri ilə olan əlaqələrini simvolizə edir. Zahid Xəlil bu şeirdə gündəlik hadisələrin belə böyük mənalar daşıdığını göstərir, uşaqlara həyatın kiçik və sadə anlarında da gözəlliklər, mənalar tapmağı öyrədir. Onun poeziyasında bədii-estetik zövq yaradan nümunələr böyüyən nəsli həm mənəvi, həm də əxlaqi baxımından püxtələşdirir. Məsələn, "Davakar sərçə" şeirində cəsarət, dirçəliş, mübarizə kimi məqamlar vurğulanır. Sərçə adətən kiçik, zəif və qorunmağa ehtiyacı olan bir quş olaraq qəbul edilir, lakin bu şeirdə sərçə öz mövqeyini qorumaq üçün döyüşür. O, balaca olsa da, dayanmadan irəliləməyi və çətinliklərə qarşı müqavimət göstərməyi təmsil edir. Hər bir şeir məna dolu mesajlarla zəngindir. Şairin yaratdığı mətnlər uşaqları yalnız təbiətə deyil, həm də öz həyatlarına qarşı daha diqqətli olmağa və mübarizə aparmağa çağırır. Safurə Quliyeva şairin yaradıcılığının bu məziyyətlərini nəzərdə tutaraq yazır: "Ölkəmizin zəngin quşlar və heyvanat aləmini uşaqlara müxtəlif əhvalat, təsvirlər vasitəsilə aydınlatmaq Zahid Xəlilin sənətkarlıq uğurlarındandır. O, milli poeziyada əvvəllər də işlənmiş mövzulara öz dəst-xətti ilə yeni poetik rənglər vurur, lövhələr yaradır, uşaq nitqinə yaxın bir ahəngdarlıq gətirir" (Quliyeva, 2022: 18-19). Heyvanlar aləmindən bəhs edən "Qurbağa", "Dovşan və köpək", "Keçi və Əziz", "Dilarənin danası", "Ayı balası", "Fillərin çadırı", "Dəvələr", "Kirpi", "Çəpiş", "At", "Öküzlər", "Qarışqalar", "Dələ" və sair şeirlər belə nümunələrdəndir. Yaşar Qarayevin fikirlərinə istinadən deyə bilərik ki: "Təbiət insanın mənəvi istinadgahı, həmişə üz tutduğu məkan, təbiət mözulu şeirlər isə humanizm və vətəndaşlığın təzahür etdiyi və ifadə olunduğu lirikadır" (Qarayev, V cild. 2016: 107). Zahid Xəlil Azərbaycan mədəniyyəti, tarixi və təbiətinə olan sevgisini bu mətnlərə sığdıraraq uşaq ədəbiyyatını daha da zənginləşdirmiş və yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

Şairin bədii irsinə layiqli dəyər verən Füzuli Əsgərli yazırdı: "Bir qələm sahibi kimi Z.Xəlil yaradıcılığının sirri olduqca sadədir. O, sadəcə olaraq dövrün elmi sferasını dərindən duyur, müasir ədəbi prosesin məfkurə istiqamətini, mənəvi-estetik dəyərini, öz oxucularının mənəvi tələbatını real şəkildə dərk edir. Vətənə məhəbbət hissləri aşılayan, şüuru formalaşdıran əsərlər yazmağı daha üstün tutur, uşaqlara maraqlı görünən, həyat müşahidələrindən doğan mövzuları ədəbiyyata gətirir və orijinal obrazlar silsiləsi yaratmağa çalışır. O, bu gün də yaxşı bilir ki, yalnız keçilməyən ədəbi cığırla Azərbaycan uşaq ədəbiyyatının gələcək inkişafına zəmanət vermək olar" (Əsgərli, 2012: 67).

Uşaq ədəbiyyatı özünəməxsus xüsusiyyətləri ilə fərqlənən bir sahədir və bu sahədə yazılan şeirlər də müəyyən şərtlərə uyğun olmalıdır. Şairlər uşağın dünyagörüşünü, zehni inkişafını və dil bacarıqlarını nəzərə alaraq, onların dünyasını ifadə edən şeirlər yazmalıdırlar. Sadəlik, aydınlıq və uyğun ritm mühüm amil kimi Zahid Xəlilin sual-cavab formasında yazılmış "Uzun yol", "Körpü ilə söhbət", "Hamı yatır", "Salam, Məlik", "Buludla söhbət" şeirləri üçün də xarakterik məziyyətdir. Hər bir parça uşaqlara düşünmə, təxəyyül qurma və mənəvi "qida" vermək məqsədi daşıyır, şairin uşaqların psixologiyasını və dilini yaxşı anlaması bəlli olur.

Zahid Xəlilin "Məktəb yolları", "Bizim məktəb", "Uşaqlar dərsə gedir", "Kitabların anası", "Xor", "Nota düşən nəğmələr", "Kitab", "Hesab dəftəri" şeirləri xüsusi ilə seçilir. Bu şeirlərdə müəllif uşaqların dünyasına, onların məktəbdəki həyatına və təhsil prosesinin

əhəmiyyətinə dair incə müşahidələrini oxuculara çatdırır, onların inkişafında və şəxsiyyətlərinin formalaşmasında bu dövrün əhəmiyyətini vurğulayır.

### 6. Əyləncəli uşaq şeirləri

Zahid Xəlilin uşaq poeziyası həm də əyləncəli olması ilə seçilir. Uşaqların gülərək hər şeirdən yeni bir təcrübə qazanması, xəyalları ilə uyğunlaşan elementlər onların marağını cəlb edir və mətnə əlavə bir dəyər qatır. Şair "Uşaqlar gülmək istəyir" məqaləsində yazır: "Uşaqlar gülməli əsərlərə daha çox meyl göstərirlər. Onlar quru təhkiyəni sevmir, yaşlarına uyğun gəlməyən fəlsəfi fikirlərə də qulaq asmaq istəmirlər" (Xəlil, 2008 b: 200). Sənətkar əksər şeirlərində bu məqama daha çox diqqət yetirib. Onun "Çəkil", "Şallaq və şıllaq", "Kürü və kərə", "Alı və gavalı", "Çələ və tələ", "Küçük, qulun, dayça, at", "Dəcəl çəpiş və qumral quzu", "Gülnar və gilənar", "Çərkəz", "Fərruxun dişi" kimi şeirləri məzəli, gülməli və maraqlı obrazlarla dolu kiçik parçalardır. Məsələn; "Fərruxun dişi" şeirində bu cəhətlər aydın görünür:

Dişi mırıqdı, Fərruxun
İşi fırıqdı, Fərruxun
Armud demir,
Alma demir,
Çəkir dişə,
Dişi də ki,
Düşür bir - bir
Gəlmir işə.
Heyvaya bir
Dişdəm çaldı
Dişdəmdə bir
Dişi qaldı (Xəlil, 2008 a: 27).

Belə mətnlər balacalar üçün çox əhəmiyyətlidir, kiçik oxucularda həm əyləndirici ovqat oyadır, həm də öyrədici mesajlar verir. Zahid Xəlil uşaqların hisslərini zənginləşdirmək və həyatda qarşılaşacaqları çətinliklərə qarşı hazırlamaq üçün müxtəlif poetik vasitələrdən yararlanır. Füzuli Əsgərli yazırdı: "Zahid Xəlilin yaradıcılığında incə yumor, poetik zarafat var. Güldürərək düşündürür. Zahid Xəlil əsərlərində orijinal yalanlar doğrunun təbliğində mühüm rol oynayır" (Əsgərli, 2012: 15). Yalanlar üzərində qurulmuş "Dovşan və canavar", "Tülkü və beçələr", "Yalan-palan", "Yalançı meşə"dəki məzəli və təbii obrazlar vasitəsilə kiçik oxucuya dürüstlük, etibar, dostluq və məsuliyyət kimi mühüm əxlaqi dəyərlərlə yanaşı, fərqli situasiyalardan doğru nəticə çıxartma bacarığı da aşılanır. Şeirlər uşaqların gündəlik həyatda yaşadıqları hissləri – sevinc, kədər, qorxu, maraq və s. açıq şəkildə ifadə edir. Şair müəyyən davranış və dəyərləri sadə bir dil ilə təqdim edərək uşaqları düzgün istiqamətləndirir.

Uşaq poeziyasında təkrarlamalar və dil oyunları geniş istifadə olunur. Belə ifadə və sətirlər uşaqlara şeirin strukturunu daha yaxşı başa düşməyə və yadda saxlamağa kömək edir, həm də onu müsiqili edir. Zahid Xəlilin şeirləri əsasında bəstələnmiş müxtəlif uşaq mahnıları balacaların təlim-tərbiyəsində və musiqi zövqünün formalaşmasında əhəmiyyətli rol oynayır. Onun yazdığı "Sülh göyərçiniyik biz", "Novruz gəlib, yaz gəlib", "Gəlsin təzə ilimiz", "Salam, qış", "Çiyələk" şeirlərinin bəstəsi Rəşid Şəfəqə; "Telefon", "Mayak" Oqtay Zülfüqarova; "Anaların sülh arzusu" Hökumə Nəcəfovaya; "Heyvanların nəğməsi" Aytən İsmixanovaya; "Buynuzu gicişən çəpiş" Qalina Tulçinskayaya; "Qızıl qaz" İqor Yegikova məxsusdur. Şeirlərin musiqi ilə birləşməsi onların təsir gücünü daha da artırır və uşaqlar üçün cəlbedici edir. Bu mahnılar uşaqların yaradıcı inkişafına təkan verməklə yanaşı, həm də milli mədəniyyətimizə olan bağlılığını gücləndirir.

## NƏTİCƏ

Bu məqalədə Zahid Xəlilin uşaq poeziyasının əsas bədii xüsusiyyətləri araşdırılmış və şairin Azərbaycan uşaq ədəbiyyatına verdiyi töhfələr müəyyən edilmişdir. Zahid Xəlilin şeirləri yalnız bədii dəyəri ilə deyil, həm də tərbiyəvi funksiyası ilə uşaq ədəbiyyatında mühüm yer tutur.

Zahid Xəlilin ilk şeirləri, uşaqlara yönəlmiş sadə və təsirli həyat fikirlərini özündə əks etdirir. Şairin erkən dövr yaradıcılığı, uşaqların təxəyyülünü inkişaf etdirmək və onları əyləndirmək ilə yanaşı, maarifləndirmək məqsədini daşıyır. Şeirlərində təbiət hadisələrinə dair düşüncələr ön plana çıxır və təbiətə olan münasibət, uşaqlara harmoniya və təbiətlə uyğun yaşamağı öyrədir.

Zahid Xəlilin şeirlərində quşlar simvolik obrazlar kimi geniş yer alır. Onlar azadlıq, təbiətə aid müsbət xüsusiyyətləri təmsil edir və uşaqların təxəyyülünü canlandırır, onları yaradıcı düşünməyə təşviq edir. Rənglər isə sadəcə vizual təsvirlər olaraq deyil, həm də duyğusal və fəlsəfi mənalar daşıyır, uşaqlara ətraf aləmi fərqli bir gözlə görməyi öyrədir və onların estetik zövqünü inkişaf etdirir.

Ritm, Zahid Xəlilin şeirlərində mühüm rol oynayır. Ritmik quruluş və təkrarlanan ifadələr uşaqların şeirləri asanlıqla əzbərləməsinə kömək edir, həmçinin onların ədəbi duyğularını gücləndirir. Şairin əyləncəli şeirləri isə uşaqları əyləndirməklə yanaşı, həm də tədris məqsədi güdür, onlara həyat dərsləri verir.

Zahid Xəlilin uşaq şeirləri həm bədii, həm də tərbiyəvi cəhətdən əhəmiyyətlidir. Onun şeirlərində obrazlı ifadələr və təbiətə dair zəngin təsvirlər uşaqların dünyagörüşünü genişləndirir. Şairin yaradıcılığı həm də Azərbaycan şifahi xalq ədəbiyyatının izlərini daşıyır. Atalar sözləri, tapmacalar, məsəllər və nağıl motivləri uşaqlara milli-mənəvi dəyərləri aşılayır və onları xalq ədəbiyyatı ilə tanış edir.

Zahid Xəlilin şeirləri, yalnız maarifləndirici və tərbiyəvi deyil, həm də əyləncəli və düşündürücü bir janr kimi uşaq ədəbiyyatında yeni üslub və məzmun xüsusiyyətlərinin formalaşmasına təsir göstərmişdir. Şairin əsərləri uşaqların daxili dünyasını poetik şəkildə ifadə edərək, onların estetik zövqünü formalaşdırır və milli, həm də ümumbəşəri dəyərləri anlamağa kömək edir.

Bütün bunlar Zahid Xəlilin Azərbaycan uşaq ədəbiyyatında özünəməxsus yer tutduğunu və gələcək nəsillər üçün dəyərli bir irs qoyduğunu təsdiqləyir.

## KAYNAKÇA

Eminov, A., (1972). Rənglərin dünyası. “Gənc müəllim” qəzeti, 7 iyul, s.5

Əskərli, F., (2012). Sehrli dünyanın memarı. Bakı: ADPU nəşriyyatı.

Əskərli, F., (2009). Azərbaycan uşaq ədəbiyyatının mərhələli inkişafı. Bakı: ADPU nəşriyyatı.

Əhmədli, B., (2015). Bu günün və gələcəyin poeziyası. “Ədəbiyyat” qəzeti, 11 iyul, s.28

Hacıyev, A., (1970). Uçan çıraqlar. “Ədəbiyyat və İncəsənət” qəzeti, 14 fevral, s.6

Xəlil, Z., (1972) Mən rəngləri tanıyıram. Bakı: Gənclik nəşriyyatı.

Xəlil, Z., (2008). Əsərləri. (Uşaq ədəbiyyatının ümumi məsələləri) VI cild. Bakı: ADPU nəşriyyatı.

Xəlil, Z., (2008). Əsərləri. (Uşaqlar üçün şeirlər). I cild. Bakı: ADPU nəşriyyatı.

Xəlil, Z., Əsərləri. (2008). (Pyeslər) VII cild. Bakı. ADPU nəşriyyatı.

Qarayev, Y., (2016). Seçilmiş əsərləri. (5 cilddə). V cild. Bakı: "Elm" nəşriyyatı.

Quliyeva, S., (2022). Uşaq ədəbiyyatının cəfakeşi. Zahid Xəlilin poeziyası, uşaq dünyası, hekayə və povestləri, elmi yaradıcılığı. "Ədəbiyyat" qəzeti, 2 aprel, s.18-19.

Məmmədov, D., (1969). Yeni kitablar. "Uçan çıraqlar". "Gənc müəllim" qəzeti, 25 dekabr , s.5

Mənsimoğlu, T., (2000). İki şeir kitabı. Hər kəsin öz dünyası var. Bakı: "Elm" nəşriyyatı.

Namazov, Q., (2007). Azərbaycan uşaq ədəbiyyatı. Bakı: Universitet nəşriyyatı.

Rəsulzadə, R., (1977). "Quşlar, quşlar" "Azərbaycan müəllimi" qəzeti, 24 iyun, s.7